# HEYDƏR ƏLİYEV YOLU

# Zəfərə aparan yol



**Siyasi partiyaların təşkilatlanaraq ölkənin inkişafına nail olmaq əzmi onun ideoloji-siyasi kursunun bütövlükdə cəmiyyətin maraqlarına cavab verməsi ilə şərtlənir. Bu baxımdan 29 illik bir tarixdə Azərbaycan siyasətinin lokomotivi olan Yeni Azərbaycan Partiyasının respublikamızın iqtidar partiyası statusunu ləyaqətlə və uğurla daşımasını şərtləndirən əsas səbəb də məhz onun ideoloji-siyasi kursunun dövlətin və xalqın maraqlarına cavab verməsidir.**

Ötən əsrin sonlarında müstəqilliyinə yenicə qovuşmuş Azərbaycanda milli mənafe və dövlətçilik maraqlarının təmsilçisi olmaq kimi müqəddəs amalı özünün siyasi idealı, əsas strateji xətti seçən YAP-ın yaranması da tarixi zərurətdən, o illərdə mövcud olmuş ideoloji-siyasi durumun doğurduğu obyektiv şəraitdən irəli gəlmişdir. Ulu öndər Heydər Əliyev ideyalarının daşıyıcısı olan bir partiyanın siyasi səhnəyə vəsiqə alması həm də 1988-ci ildən başlayaraq respublikada cərəyan edən hadisələrin yekunu, ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. Azərbaycanda siyasi qurumların formalaşması prosesi 1980-ci illərin sonundan başlanan xalq hərəkatının gedişində özünü büruzə vermiş, 1990-cı ilin əvvəllərində bir sıra siyasi təşkilatlar yaranmışdı. Xalq hərəkatından bəhrələnərək yaradılan və hakimiyyətə yiyələnən siyasi təşkilatlar ölkəni düşdüyü ağır iqtisadi, siyasi, mənəvi böhrandan nəinki qurtara bilmədi, əksinə respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial gərginlik xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Məhz ona görə də Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və xalqımızın böyük oğlu Heydər Əliyevin ətrafında birləşdilər.

Bu gün arxaya dönüb o illərə nəzər salanda qürurlanırıq ki, bu yola qədəm qoyan insanlar o zamankı hakimiyyət dairələrinin YAP-ın yaranmasına göstərdikləri maneçiliklər, təzyiqlər qarşısında əyilmədilər. Heç bir hədə-qorxu onların iradəsini qıra bilmədi. Xalqın arzularının təcəssümü, yekdil iradəsinin ifadəsi kimi tarixi reallıqdan irəli gələrək vətənpərvərlik, əqidə birliyi, dövlət müstəqilliyi və azərbaycançılıq ideyalarının möhkəm təməli üzərində yaranan YAP Azərbaycanın siyasi həyatına yeni nəfəs verdi.

1992-1993-cü illərin məlum hadisələri, ölkəni bürüyən siyasi böhran xalqı Heydər Əliyevi ölkənin taleyini həll etmək üçün Bakıya çağırmağa vadar etdi. Beləliklə də tarixi proseslər Heydər Əliyevə ölkə rəhbəri, YAP-a isə iqtidar partiyası statusu qazandırdı. Heydər Əliyevin ali hakimiyyətə qayıdışı ilə Azərbaycanda müstəqil dövlətçiliyin əsaslarının formalaşması prosesi başlandı. Heydər Əliyevin uğurlu siyasi xətti YAP-ı da ölkənin siyasi səhnəsinin ön cərgəsinə çıxardı. Eyni zamanda, YAP ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətində ona daim yardımçı oldu. Azərbaycan xalqı YAP-ı həm də Heydər Əliyev partiyası kimi qəbul etdi. Çünki bu təşkilat Ümummilli Liderin siyasi və ideoloji irsinin, dövlətçilik təcrübəsinin və quruculuq fəaliyyətinin harmoniyasını özündə əks etdirirdi.

Ölkəmizdə hazırda 50-dən çox siyasi partiya mövcud olsa da, onların heç biri sosial bazasına, nüfuzuna və gücünə görə Yeni Azərbaycan Partiyası ilə müqayisə olunmaq imkanında deyil. Təsadüfi deyil ki, 1993-cü ildən bəri ölkəmizdə keçirilən bütün seçkilərin qalibi YAP-ın namizədləri olmuşlar. Bu qələbələr YAP-ın cəmiyyətdəki yerinin möhkəm olduğunu, dövlətçiliyimizin möhkəmləndirilməsi, ölkəmizin inkişafı istiqamətində həyata keçirilən proqramların nəticəsi olaraq xalqın bu təşkilata böyük etimad göstərdiyini təsdiq edir. Digər tərəfdən, bu qələbələr həm də təşkilati göstəricilərə və ictimai nüfuzuna görə bu gün respublikada YAP-a alternativ olacaq qüvvənin olmamasından xəbər verir.

YAP-ın cəmiyyətin lokomotiv qüvvəsi kimi çıxış etməsinin əsasında həm də xarizmatik lider amili dayanır. Ona görə Yeni Azərbaycan Partiyasının müvəffəqiyyətini ilk növbədə əbədiyaşar lider Heydər Əliyevin bizlərə ərməğan qoyduğu zəngin siyasi irsində axtarmaq lazımdır. Bu baxımdan YAP-ın "Heydər Əliyev Partiyası" adlandırılması da obyektiv qanunauyğunluqlara əsaslanır və partiyanın uğurlarında lider amilinin rolunu dolğun şəkildə təcəssüm etdirir.

Təsadüfi deyildir ki, 1999-cu ildə keçirilən YAP-ın I qurultayında təşkilatın çoxminli üzvlərinin istəyinə uyğun olaraq cənab İlham Əliyev partiya Sədrinin müavini seçilmişdi. Bu tarixi seçim partiyanın gəncləşməsində, cəmiyyətdəki mövqelərinin və nüfuzunun yüksəlməsində, sıralarının genişlənməsində vacib rol oynadı. Birinci qurultaydan sonra ölkədə yeni bir siyasi mərhələ başladı və cəmi bir il sonra - 2000-ci ilin noyabrında keçirilən parlament seçkilərində YAP qələbə qazanaraq 125 deputat yerindən 75-ni qazandı. Həmin seçkidə cənab İlham Əliyevin başçılıq etdiyi proporsional siyahı ilə də YAP böyük uğura imza atdı, çoxmandatlı seçki dairələri üzrə deputat yerlərinin üçdəikisini qazandı.

YAP sıralarında cəmiyyətin bütün zümrələrini - gəncləri, qadınları, elm, mədəniyyət, ədəbiyyat xadimlərini, sahibkar və sadə zəhmət adamlarını birləşdirir. YAP-ın gənclərə xüsusi yer verməsi, onlara mühüm dövlət vəzifələrini etibar etməsi onun bir siyasi təşkilat kimi uğurlarının, nailiyyətlərinin təmin edilməsində mühüm əhəmiyyət daşıyır.

Ümummilli lider Heydər Əliyev 2003-cü il oktyabr ayının 1-də Azərbaycan xalqına müraciətində cənab İlham Əliyevə, həm də YAP-a yüksək önəm verdiyini qeyd etmiş, xalqa ən düzgün seçim ünvanı kimi məhz İlham Əliyevi və Yeni Azərbaycan Partiyasını göstərmişdir.

2003-cü ilin oktyabr ayında Heydər Əliyev siyasi kursunun layiqli davamçısı kimi prezident seçkilərinə qatılan cənab İlham Əliyevin qələbəsi həm də Yeni Azərbaycan Partiyasının zəfəri, nailiyyəti idi. Bu seçki Heydər Əliyev siyasi kursunun alternativsizliyini bir daha ortaya qoydu. Prezident İlham Əliyev YAP-ın III qurultayındakı çıxışında bu barədə belə demişdir: "Heydər Əliyevin siyasəti yaşamalıdır. Bu, zəmanənin tələbidir. Bu, yeganə siyasətdir ki, Azərbaycanı daha da gücləndirəcək, Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına xidmət edəcəkdir. Mən çox şadam ki, Azərbaycan xalqı 2003-cü ildə öz seçimini düzgün etdi. Heydər Əliyevin siyasətinə öz səsini verdi və beləliklə, bu gün də biz hamımız, Azərbaycan xalqı, Yeni Azərbaycan Partiyası Heydər Əliyevin siyasətinə sadiq qalaraq onu davam etdiririk və çox uğurla davam etdiririk".

Elə həmin qurultayda partiya üzvlərinin Heydər Əliyev ideyalarına dərin sədaqətinin, onun siyasi kursunun ən layiqli davamçısına böyük inamın ifadəsi olaraq Prezident İlham Əliyev YAP-ın Sədri seçildi. YAP sıralarında birləşən yüzminlərlə insanın ürəyindən xəbər verən bu seçim ölkədəki siyasi mühitə də yüksək ab-hava gətirdi. Xüsusilə qeyd edilməlidir ki, Heydər Əliyevin siyasətinin əmanəti olan partiyaya sədr seçkisinə Ulu Öndərin ən layiqli davamçısı, şərəfli irsin daşıyıcısı cənab İlham Əliyev alternativsiz getdi. Bu onu deməyə tam əsas verirdi ki, YAP-ın yüzminlərlə üzvü və sayı milyonu keçən təəssübkeşləri yeni Sədri yekdilliklə dəstəkləyir və onun ətrafında sıx birləşərək Yeni Azərbaycan quruculuğunda fəal iştirak edəcəklər. Özünü tam doğruldan bu inam YAP-ın daha böyük nailiyyətlər əldə etməsinə əsas zəmin oldu.

Prezident İlham Əliyevin həyata keçirdiyi islahatların ölkəmizi çox böyük uğurlara gətirib çıxarması faktdır. Azərbaycan iqtisadiyyatının inkişaf etməsindən tutmuş əhalinin rifahının yaxşılaşdırılması, Azərbaycanın simasının müasirləşdirilməsi və yeniləşdirilməsi də daxil olmaqla çox böyük irəliləyişlər əldə edilib. Azərbaycanın qısa zaman çərçivəsində dəyişməsi, regionların inkişafı, insanların rifahının yaxşılaşması, respublikamızın dünyada mövqelərinin möhkəmlənməsi və s. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin uğurlarıdır. Bu uğurların kökündə dayanan başlıca amil ulu öndər Heydər Əliyevin və onun layiqli siyasi davamçısı olan Prezident İlham Əliyevin ölkədə həyata keçirdiyi siyasət, bu siyasətin Azərbaycanın inkişafına yol açması, ölkənin iqtisadiyyatının, sosial həyatının əhəmiyyətli dərəcədə dəyişməsi, simasının yenilənməsi, müasirləşməsi bugünkü iqtidarın insanlar tərəfindən dəstəklənməsidir.

2013-cü ildə partiya üzvlərinin siyasi iradəsi və istəyi ilə Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban Əliyeva YAP-ın Sədrinin Birinci müavini seçildi. Bu seçim ilk növbədə Azərbaycanın birinci xanımının partiyanın cəmiyyətdəki nüfuzunun yüksəlməsinə verdiyi əvəzsiz töhfələrlə şərtlənir. İnkişafyönümlü layihələrə böyük dəstək verən Azərbaycanın birinci xanımı partiya daxilində qadın hərəkatının genişlənməsini təmin etmişdir. Bütün sahələrdəki fəaliyyəti ilə uğur rəmzinə çevrilmiş Mehriban xanım Əliyeva Sədr müavini kimi YAP-ın fəaliyyətində və inkişafında mühüm rol oynayır.

Öz sıralarında ictimaiyyətin bütün təbəqələrini birləşdirən YAP ümummilli lider Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısı kimi cəmiyyətdə öz aparıcı rolunu gündən-günə möhkəmləndirməkdədir. Partiyanın getdikcə daha çox nüfuz qazanaraq cəmiyyətimizin əsas siyasi qüvvəsi, hakim partiya statusunu özündə saxlaması da yaradılmasında olduğu kimi, tarixi zərurətin ifadəsidir. Bununla yanaşı, Heydər Əliyev partiyasında İlham Əliyev missiyası şərəflə, məsuliyyətlə, fədakarlıqla, ən əsası isə nəticəsi misilsiz nailiyyətlər olan alternativsiz siyasi kursla müşayiət olunur.

Xalqımız dahi Heydər Əliyev dühasının ərsəyə gətirdiyi ən mühüm əsərlərdən olan Yeni Azərbaycan Partiyasının yaranmasının 29-cu ildönümünü ərazi bütövlüyünü təmin etmiş qalib xalq kimi qarşılayır. Zəfərə aparan yolu ulu öndər Heydər Əliyev hakimiyyətə yenidən qayıdışı ilə müəyyənləşdirdi və bu yoluda onun layiqli davamçısı cənab İlham Əliyev cəsarətli və mətin addımlar ataraq ata vəsiyyətini yerinə yetirdi.

2020-ci il bütün xalqımızın yaddaşında Azərbaycanın şanlı səhifələrindən biri, Vətən müharibəsində qazandığımız möhtəşəm Qələbə, Zəfər ili olaraq qalacaqdır. Son 17 ildə Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurla həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanın ən yeni tarixi qızıl hərflərlə yazılır. Cənab Prezidentin geniş dünyagörüşü, siyasi uzaqgörənliyi, diplomatik bacarığı, hərbi-strateji dühası öz bəhrəsini verir. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində xalqımız dəmir yumruq kimi birləşərək erməni işğalçılarını tarixi torpaqlarımızdan qovdu.

Bu gün işğaldan azad edilmiş torpaqlarımızda quruculuq və abadlıq işləri sürətlə davam etdirilir. Cənab Prezidentin Qarabağın şəhər və kəndlərinə hər səfəri yeni-yeni obyektlərin, müasir standartlara cavab verən avtomobil yollarının açılışı ilə yadda qalır. 2021-ci ilin oktyabrın 26-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimini keçirmələri, cənab Ərdoğanın təyyarəsinin birbaşa Füzuli Hava Limanına enməsi böyük Zəfərin daha bir təntənəsi kimi tarixə düşdü.

Danılmaz həqiqətdir ki, Heydər Əliyev yolu Zəfərə aparan yoldur. Xalqımız bundan sonra da uzun illər YAP-ın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu yolda inamlı addımlar atacaq, Azərbaycanın qüdrətlənməsinə, dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə öz töhfəsini verəcəkdir.

**Cəlil Baxşıyev,**
*YAP Lerik rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən*